**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# ANARIN NƏSRİ VƏ PUBLİSİSTİKASINDA PARALELLƏR

İxtisas: 5716.01 – Azərbaycan ədəbiyyatı

Elm sahəsi: Filologiya

İddiaçı: **Elnarə Elxan qızı Məmmədova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Sumqayıt – 2021**

Dissertasiya işi Sumqayıt Döv niversitetinin Azərbaycan və xarici ölkələr ədəbiyyatı kafedra yerinə yetirilmişdir.

Elmi rəhbər: filologiya elmləri doktoru, professor
**Nigar Vəliş qızı İsgəndərova**

Rəsmi opponentlər: filologiya elmləri doktoru, professor
**İfrat Səlim qızı Əliyeva**

filologiya elmləri doktoru, dosent
**Leyla Kamran qızı Məmmədova**

filologiya üzrə fəlsəfə doktoru, dosent
**Razim Əli oğlu Məmmədov**

Azərbycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Sumqayıt Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.24 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: Filologiya elmləri doktoru, professor
**Ramazan Salam oğlu Məmmədov**

Dissertasiya şurasının elmi katibi: Filologiya üzrə fəlsəfə doktoru,dosent
**Böyükxanım İbrahim qızı Eminli**

Elmi seminarın sədri: Filologiya elmləri doktoru, professor
**Rafiq Yusif oğlu Əliyev**

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Məşhur altmışıncılar nəslinin ən parlaq nümayəndələrindən biri olan Anarın (1938) yarıməsrdən artıq bir dövrü əhatə edən fəaliyyəti dəfələrlə bir çox tənqidçi və ədəbiyyatşünasların diqqət mərkəzində olmuşdur. Hal-hazırda da Anarın yaratdığı hər bir əsərə oxucu və tədqiqatçı marağı böyükdür. Elə buna görə də yazıçının məzmun və forma baxımdan zəngin yaradıcılığının hələ də öyrənilməmiş, kifayət qədər tədqiq edilməmiş yeni-yeni səhifələri var.

Anarın "Ötən ilin son gecəsi", "Mən, sən, o və telefon", "Dantenin yubileyi" kimi əsərləri dünyanın bir çox ölkələrində sevilə-sevilə oxunan əsərlərdir. Onun "Molla Nəsrəddin – 66" toplusuna daxil edilmiş satirik hekayələri də böyük rəğbət qazanmışdır. Hələ bu gün də son dərəcə populyar olan "Beşmərtəbəli evin altıncı mərtəbəsi" romanı, "Ağ liman" povesti onun yaradıcılığında böyük hadisə kimi qiymətləndirilir. Anarın xalq dastanı əsasında yazdığı "Dədə Qorqud" povesti oxucuları Azərbaycan xalqının "ilk kitabı" ilə tanış edərək bütün dünyada yayılmışdır. Yazıçı postsovet dövründə də bədii nəsr sahəsində səmərəli fəaliyyət göstərməkdə davam edir. Geniş ictimai fəaliyyəti ilə yanaşı, mətbuatda bir-birindən maraqlı nəsr əsərləri çap olunur: "Qırmızı limuzin", "Vahimə", "Göz muncuğu" hekayələri, "Otel otağı" povesti, "Ağ qoç, qara qoç" romanı və s. Bunlarla yanaşı, o, pyeslər, ssenarilər yazır, filmlər də çəkir.

Bunlarla paralel Anar publisistika ilə də olduqca məhsuldar və ciddi şəkildə məşğul olur. O, publisistikanın bütün ənənəvi formalarına müraciət edərək maraqlı esselər, dərin ədəbi-tənqidi məqalələr, Azərbaycan ədəbiyyatı, incəsənəti, mədəniyyəti və tarixində dərin iz qoymuş klassiklərimiz və müasirlərimiz haqqında maraqlı portret oçerklər yaradır. Yazıçı həyat haqqında düşüncələrini orijinal bədii-publisistik miniatürlər janrında qələmə almış və onları "Gecə düşüncələri" adlandırmışdır. Qeyd edilən məsələlər həmçinin onun publisistik və bədii-sənədli səpkidə yazılmış "Ulduzlara bir az yaxın","Gecə düşüncələri","Əsrin əsiri" kitablarının əsas məzmununu təşkil edir. Ulu öndər, Ümummilli lider Heydər Əliyevin xatirəsinə

həsr edilmiş üçcildlik "Azərbaycan ədəbiyyatı, incəsənəti və mədəniyyəti" kitabı bədii-sənədli nəsrinin ən yaxşı nümunələrini özündə ehtiva edir.Bədii nəsrində olduğu kimi, Anar bu gün də özünəməxsusluğu, yaradıcılıq spesifikası ilə fərqlənən ənənəvi publisistik janrlara bir çox yeniliklər gətirir. Bütün bunlar isə onun bədii publisistikasının bədii yaradıcılığından heç də geri qalmadığını söyləməyimizə bir daha əsas verir.

Məlum olduğu kimi, söz sənətinin bu iki mühüm tərkib hissəsinin - nəsr və publisistikanın öz inkişaf qanunları, öz janrları, bədii təsvir vasitələri var, müəllifin özünüifadə üsulları isə onu başqalarından fərqləndirir. Onu da qeyd etmək lazımdır ki, Anarın nəsri ilə publisistikasını birləşdirən əsas cəhət müəllif dəst-xətti, dünyagörüşü, mövzu və problemlərin bir-biri ilə səsləşməsidir. Müəllifin yaradıcılığında – istər publisistikasında, istərsə də nəsrində tez-tez toxunduğu iki qlobal mövzu tarix və müasirlikdir.

Zaman kontekstindən asılı olmayaraq istər bədii, istərsə də publisistik fəaliyyətində yazıçı konkret problemin həllini öz qəhrəmanlarının daxili aləmlərinə, mənəvi meyarlarına, mentallığına və ümumi ağrılı məqamlara, reallıqlara əsaslanaraq qiymətləndirir.Buna əmin olmaq üçün təkcə Anarın nəsri ilə deyil, həm də bu gün onun yaradıcılığının mühüm hissəsini təşkil edən bədii publisistikası ilə tanışlıq lazımdır.

Anarın bədii üslubunu müəyyən edən əsas meyarlar onun yazıçı səmimiyyəti və vətəndaş mövqeyi, bu gündən keçmişə və gələcəyə obrazlar vasitəsilə nəzər salmaq bacarığı, tarixi keçmişi və müasir həyatı qərəzsiz dəyərləndirməyidir. Bu məziyyətlər yalnız onun romanlarına, povest və hekayələrinə xas deyil, eyni zamanda, publisistik yaradıcılığına da aiddir.

Anarın bədii nəsri dəfələrlə tədqiqata cəlb edilmişdir. Ancaq onun dövri mətbuatda çap edilmiş və fundamental toplularında yer almış bir çox məqalələri və oçerkləri, icmalları və esseləri, düşüncə və qeydləri haqqında çox az yazılmışdır. Kökündə daşıdığı informativ dəyəri, mövzu və problemlərin geniş diapazonunu, ifadəliliyini anlamaqla çağdaş söz ustadının yaradıcılığını dərindən dərk etmək cəhdi mövzunun aktuallığını müəyyən edən cəhətlərdəndir.

Anar yaradıcılığa başladığı gündən onun əsərləri oxucuların və tənqidçilərin diqqət mərkəzində olmuşdur. Bu günə qədər Anarın yaradıcılığına kifayət qədər elmi-tədqiqat işləri həsr edilmişdir. Bunların arasında L.Anninskinin, N.Əliyevanın, S.Bəşirovun, N.Cəfərovun, F.Musayevanın, Pərvinin, R. Uluselin, S.Xəyalın və başqalarının monoqrafiyalarını qeyd etmək olar.

Bundan əlavə, bütövlükdə müasir Azərbaycan nəsri, həmçinin altmışıncılar nəslinin və ya "yeni Azərbaycan nəsrinin" nümayəndələrinin yaradıcılığına həsr edilmiş geniş elmi-tədqiqat əsərləri mövcuddur və Anarın da nəsr əsərləri bu aspektdə geniş tədqiqata cəlb edilmişdir. T.Əlişanoğlu, A.Hacıyev, Y.Qarayev, Q.Quliyev, A.Hüseynov, M.İmanov, B.Nəbiyev və başqalarının monoqrafiyaları bu qəbildəndir.

Anarın yaradıcılığının müxtəlif aspektləri və bir çox dillərə tərcümə edilmiş ayrı-ayrı əsərləri haqqında istər Azərbaycan, istərsə də respublikanın hüdudlarından kənarda (Türkiyə, Rusiya, İran, bir çox Avropa ölkələri və ABŞ-da) müasir tənqidçi və ədəbiyyatşünasların xeyli məqalə, rəy və qeydləri mövcuddur. Buna məşhur rus tənqidçiləri L.Anninski, İ.Borisova, Q.Petrova, V.Lavrov, A.Tverskaya, İ.Perevedentsev, D.Urnov, E.Şklovski, A.Latınina, V.Kovski, A.Boçarov, N.Boqoslovski, L.Lavrova, Türkiyə ədəbiyyatşünasları Fakir Baykurt, Mustafa Kutlu, Adnan Özyalçınər, Oktay Akbala, Yavuz Onka, Əli Yavuz Akpinar, alman alimləri M.Farenqolts, T.Zommerfild, F.Buxner, Ş.Proys və bir çox başqalarını misal göstərmək olar.

Azərbaycan ədəbiyyatı və ədəbiyyatşünaslığının Məmməd Arif, Mirzə İbrahimov, Həmid Araslı, Sabit Rəhman, İsmayıl Şıxlı, Bəxtiyar Vahabzadə, Məmməd Araz, İsa Muğanna, Yusif Səmədoğlu, Qulu Xəlilov, Xalid Əlimirzəyev kimi korifeylərinin Anarın yaradıcılığı haqqında tənqidi əsərləri, ayrı-ayrı əsərlərinə həsr edilmiş məqalə, rəy və icmalları mövcuddur.

Anarın yaradıcılığına, xüsusən də nəsr və publisistikasına xeyli dissertasiya işi həsr edilmişdir.

Bunlara N.Bayramova, N.Həsənova, X.Manaflı, P.Nurəliyeva, D.Tahirova və başqalarının işlərini nümunə göstərmək olar.

Ancaq bununla yanaşı, onun yazıçılıq və ictimai fəaliyyəti ilə bağlı bir çox mövzular hələ də öz tədqiqatçılarını gözləməkdədir. Anarın yaradıcılığının tədqiq edilməmiş aspektlərindən biri onun nəsr və publisistikası arasında paralellər mövzusudur.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiya işinin tədqiqat obyekti ilk növbədə Anarın müxtəlif janrlarda qələmə aldığı əsərləri, xüsusən də nəsri və publisistikası təşkil edir. Tədqiqat obyekti kimi bədii və publisistika janrlarını, onların tipoloji xüsusiyyətlərini tədqiq edən fundamental əsərlərdən geniş istifadə edilmiş, söz yaradıcılığın bədii və qeyri-bədii janrlarının inkişaf tarixi və nəzəriyyəsi ilə bağlı bəzi nəzəri əsərlər cəlb edilmişdir.

Tədqiqatın predmeti Anarın nəsri və bədii publisistikasının tipoloji xüsusiyyətləri, onların arasında paralellərin müəyyənləşdirilməsi baxımından müqayisəli təhlili, yazıçının bədii-publisistik yaradıcılığının əsas parametrlərinin açıqlanmasıdır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin əsas məqsədi Anarın bədii-publisistik yaradıcılığında dünyanın müxtəlif bədii inkişaf yollarını sistemli şəkildə tədqiq etmək və təhlil etmək, onlar arasında paralelləri aşkar etməkdir.

Dissertasiya işinin əsas məqsədlərinə nail olmaq üçün aşağıdakı tədqiqat vəzifələri qarşıya qoyulmuşdur:

1. Anarın nəsr və publisistikasının mövzu və problemlərini bütün müxtəlifliyi ilə təhlil etmək, onları tarixilik və müasirlik problemləri ətrafında qruplaşdırmaq;

2.Anarın təhlilə cəlb edilmiş əsərləri əsasında onun bütöv yaradıcılığında tarixilik və müasirlik konsepsiyasını azərbaycançılıq ideologiyası işığında araşdırmaq;

3. Yazıçının nəsr və publisistikasının janr-üslub formalarının rəngarəngliyi və poetikası, onların strukturunda yer alan novatorluq məsələlərini üzə çıxarmaq;

4. Yazıçının nəsr və publisistikasının ideya-bədii əlaqələrini tədqiq etmək, milli və dünya ədəbiyyatı kontekstində onlar arasında məzmun və janr, üslub əlaqələrinin oxşar və fərqli cəhətlərini müəyyən etmək;

5. Bədii nəsr əsərlərində yazıçının həyat reallıqlarını təsvir etmə, müasir nəsrdə müxtəlif istiqamət və cərəyanlara müraciət etmə üsullarını, həmçinin onun ədəbi prosesin müxtəlif kateqoriya və komponentlərinə yanaşmasını nəzərdən keçirmək;

6. Yazıçının müsahibə, məqalə və çıxışlarında ədəbiyyata, incəsənətə və mədəniyyətə aid ideya-estetik görüşlərini və onların bədii nəsrdə əks olunmasını müəyyən etməkdir.

**Tədqiqat metodları.** Tədqiqatda bədii ədəbiyyat və publisistikada problemin qoyuluşu və həlli zamanı paralellər yaradan müqayisəli-qarşılaşdırma metodundan, toplanmış materialların sistemləşdirilməsi və təqdimi üçün istifadə edilən təsviri metoddan, Anarın bədii nəsri və publisistikasının xüsusiyyətlərini paralel öyrənmək üçün tipoloji analizdən istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

1. Anarın həm nəsrində, həm də publisistikasında dönə-dönə müraciət etdiyi mövzulardan biri tarixilik və müasirlik xronotoplarıdır. Bu təsvir üsulu vasitəsilə yazıçı Azərbaycanın ta qədimdən bu günə kimi keçdiyi tarixi yolu işıqlandırır, bütün əsərlərinin qayəsini təşkil edən "azərbaycançılıq" ideologiyasının məğzini müəyyən edir.

2. Anarın bədii publisistikası və nəsri onun dünya və insan haqqında fikirlərini ortaya qoyan mövzuların, problemlərin, motivlərin ayrılmaz sisteminə əsaslanan ideoloji-estetik birliyi təmsil edir.

3. Müəllifin qarşılıqlı zənginləşdirmə və diffuziya prosesində olan həm bədii, həm də publisistik əsərlərində janr seçimi bu sahədə onun yeni axtarışlar və eksperimentlərə can atdığını nümayiş etdirir.

4. Anarın nəsr və publisistikası üçün janr kontominasiyası xarakterikdir ki, bu da publisistik əsərlərə bədii obrazlılıq elementləri daxil etməyə, bədii əsərləri informativlik və sənədliliklə zənginləşdirməyə imkan verir. Bu, yazıçının yaradıcılığının tipoloji xüsusiyyətlərindən biridir.

5. Anarın bədii nəsri və publisistikasında müəllif mövqeyi onun dünyagörüşü və estetik idealları ilə sıx əlaqədədir, onun reprezentasiya

üsulları isə Anarın bədii-estetik baxışlarının bütövlüyünü, milli və bəşəri ideyalara sadiq yazıçı kimliyini müəyyənləşdirir.

6. Anarın yaradıcılığında publisistika bədii nəsrdən az yer tutmur və onun fəlsəfi-estetik axtarışları mənəvi dəyərlərini əks etdirən vahid bir sistemdir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi ondadır ki, burada xüsusi yanaşma çərçivəsində Anarın yaradıcılığında öz daxili mahiyyəti ilə ideya-estetik vəhdət təşkil edən, kəsişən motivlər sisteminə əsaslanan bədii mətnləri ilə publisistikası müqayisəli təhlilə cəlb olunur.

Dissertasiya işində yazıçının 1950-ci illərdən bu günədək qələmə aldığı bədii və publisistik əsərlərdə paralellərin öyrənilməsi bu əsərlərdə reallığın təsvirində fərqli yanaşmaların müəyyənləşdirməsi fonunda aparılır.

Yazıçının bədii nəsri və publisistik əsərlərinin müqayisəli təhlili zamanı tarixilik və müasirliklə, tarixi keçmiş və bu günümüzlə bağlı bir çox problemlərin həllində onun yaradıcı, ideya-estetik görüşlərinin inkişafı nəzərdən keçirilir. “Dünən və bu gün” dixotomiyası Anar yaradıcılığının inkişafının ana xəttini təşkil edir.

Anarın nəsr və publisistikasında müasirlik və tarixilik kateqoriyalarına həsr olunmuş iki fəsildən ibarət olan dissertasiya işinin quruluş və kompozisiyasını məhz bu cəhət təyin edir.

Anarın yaradıcılığının nəsr və bədii publisistikası arasında paralellər kontekstində təhlili söz sənətinin iki fərqli qolunun ədəbiyyatın müxtəlif inkişaf mərhələlərində oxşar və fərqli cəhətlərini aşkar etməyə imkan verir. Bu baxımdan Anarın əsərləri hələ xüsusi tədqiqat mövzusu olmamışdır.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Dissertasiyanın nəzəri əhəmiyyəti XX əsrin ikinci yarısında Azərbaycan nəsr və publisistikasının ən parlaq nümayəndələrindən biri olan Anarın yaradıcılığının öyrənilməsi üçün elmi-nəzəri baza yaratmasından ibarətdir, çünki müəyyən qarşılıqlı əlaqə və təsiri özündə ehtiva edən bədii nəsr və publisistikanın üzvi şəkildə əlaqələndirilməsi məhz onun yaradıcılığında daha aydın müşahidə edilir.

Bu mövzu ilə bağlı bir çox problemlərin həlli müasir Azərbaycan ədəbiyyatşünaslığı üçün mühüm nəzəri əhəmiyyət daşıyır və XX əsr ədəbi prosesində gerçəkliyin bədii və bədii-sənədli mənimsəmə formalarının rəngarəngliyi haqqında təsəvvürləri genişləndirir.

Dissertasiya işinin əsas müddəa və nəticələrindən Azərbaycan ədəbiyyatı tarixinin, müasir Azərbaycan yazıçılarının, xüsusən Anarın əsərlərinin öyrənilməsi prosesində, həmçinin universitetlərin filologiya fakültələrində tədris edilən nəzəri kurslarda istifadə edilə bilər. Dissertasiyanın materiallarından dərsliklər, dərs vəsaitləri, müasir Azərbaycan ədəbiyyatı tarixi və ədəbiyyat nəzəriyyəsi üzrə tədris proqramlarının tərtib edilməsində istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya Sumqayıt Dövlət Universitetinin Azərbaycan və xarici ölkələr ədəbiyyatı kafedrasının tədqiqat istiqamətlərinə uyğun olaraq yerinə yetirilmişdir. İşin ayrı-ayrı fəsilləri qeyd olunan kafedranın iclas və seminarlarında müzakirə olunmuşdur. Dissertasiya işində əldə edilən elmi nəticələr, dissertasiya işinin əsas məzmunu, tədqiqat nəticələri Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi jurnallarda, müxtəlif xarici ölkələrin müvafiq nüfuzlu jurnal və elmi məcmuələrində nəşr olunmuş elmi məqalələrdə, iddiaçının beynəlxalq konfranslarda çıxış və məruzələrində öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Sumqayıt Dövlət Universitetinin Azərbaycan və xarici ölkələr ədəbiyyatı kafedrasında rus dilində yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Giriş 12 səhifə, I fəsil 66 səhifə, II fəsil 58 səhifə, nəticə 4 səhifə, istifadə olunmuş ədəbiyyat siyahısı 16 səhifə. Dissertasiya işi ümumilikdə 156 səhifə, 237 990 işarədən ibarətdir.

## TƏDQİQAT İŞİNİN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** hissəsində mövzunun aktuallığı, işlənmə dərəcəsi əsaslandırılır, obyekti və predmeti, məqsəd və vəzifələri, tədqiqatın metodları, müdafiəyə çıxarılan müddəalar müəyyənləşdirilir, tədqiqatın elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, tədqiqat işinin aprobasiyası və tətbiqi, dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı, dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi və işarə ilə ümumi həcmi haqqında məlumat təqdim edilir.

Birinci fəsil **"Anarın nəsri və publisistikasında müasirlik və müasirlər"** adlanır və dörd yarımfəsildən ibarətdir. Hər yarımfəsil isə ayrı-ayrı paraqraflara bölünür.

**"Anarın yaradıcılığında müasir qəhrəman milli xarakterin təcəssümü kimi"** adlanan birinci yarımfəsil dörd paraqrafdan ibarətdir.

**"Müasir qəhrəman: Anarın publisistikasında əsas mənəvi kriteriyalar"** adlanan birinci paraqrafda yazıçının müasir qəhrəman haqqında düşüncələrinin yer aldığı publisistik məqalələri nəzərdən keçirilir ("Qəhrəman: indi və gələcəkdə", "Azərbaycançılıq haqqında düşüncələr", "Dəyər meyarları üzərində düşüncələr", "Azərbaycan ədəbiyyatı, incəsənəti və mədəniyyəti" üçcildliyinə daxil edilmiş məqalələr).

Yaradıcılğa başlayanda Anar 1967-ci ildə "Ədəbiyyat qəzeti"ndə "Qəhrəman: indi və gələcəkdə" adlı bir məqalə nəşr etdirdi. Daha sonra bu məqalə yazıçı tərəfindən "Əsrin əsiri" toplusu da daxil olmaqla, demək olar ki, bütün toplulara daxil edilmişdir. Məqalə müəllifin özünə verdiyi bir sualla başlayır: *"Müasir qəhrəmanda hansı xüsusiyyətlər mənim üçün xüsusilə cəlbedicidir?"*[1]. Yazının sonrakı qismindən aydın olur ki, Anar üçün müasir qəhrəmanda "xüsusilə cəlbedici" "xüsusiyyətlər" fanatizmə çevrilməyən inam, özündən razılığa dönməyən xeyirxahlıq, özünə və başqalarının hisslərinə hörmətlə birləşmiş anlayış və bağışlama qabiliyyətidir. Anar

---

[1]Анар. Пленник века / А.Р.Рзаев. – Баку: Азернешр, – 2010.–с . 47

sözə, fikrə güvənməyi, prinsiplərə sadiqliyi müdafiə edir, eyni zamanda da müxaliflərə qarşı tolerant olmağın tərəfdarıdır. Həmçinin, Anar *"başqalarının ağrısını öz ağrısı kimi hiss etmək"*[2] bacarığına xüsusi əhəmiyyət verir. Anara görə, müasir qəhrəman həqiqəti müdafiə edərkən inadkar və cəsarətli, ən əsası isə *"məsuliyyət yükünü"*[3] öz üzərinə götürməkdən çəkinməyən bir insandır. Anarın insani, yazıçı və şəxsi mövqeyi məqalənin yekun sözlərində belə xarakterizə olunur: *"Və heç bir istisnasız, sadəcə insanlıq!"*[4].

Anar üçün müasir qəhrəman yalnız onun bədii əsərlərinin bu və ya digər insanı təmsil edən personajı deyil. Bu, hər şeydən əvvəl, milli xarakterin aydın təcəssümü, milli ideyanın reallaşdırılması vasitəsidir.

Hələ yaradıcılığa başlayanda, ilk əsərlərində gənc yazıçı özünün yaradıcılıq predmetinin bütün problemləri və mənəvi axtarışları ilə müasir insan olduğunu qeyd edirdi. Anarın məhsuldar yaradıcılıq yolu boyunca bu mövzu onun həm bədii nəsri, həm də publisitikası üçün aktual olaraq qalır, hər yeni əsəri ilə daha da zənginləşir.

Yazıçı məqalələrində özünün yazıçılıq kredosunun qəhrəmanının hansı "cəhətlərin" məcmusundan ibarət olduğu və hansı "proqram xarakteri" daşıdığı haqqında mükəmməl məlumat verir. Ən əsası da odur ki, Anar və onun yaradıcılığı ilə tanış olan hər bir kəs təsdiq edə bilər ki, Anar yalnız qəhrəmanlarına qarşı deyil, özünə qarşı da belə tələblər qoyur və bu tələblər onun bütün həyatı və yaradıcılığı boyu olmuşdur.

**"Anarın ilk hekayələri və publisistikasında müasirlik paradiqması və çağdaş insan obrazı"** adlananikinci paraqrafyazıçının ilk hekayə və povestlərinin təhlilinə həsr edilmişdir. Bu əsərlərində o, öz estetik görüşlərinə əsaslanaraq, müasir azərbaycanlı obrazını yaradır, burada insan və insanlıq anlayışları onun yazıçı və bədii marağının əsasını təşkil edir. Tədqiqatçılarından birinin, haqlı olaraq, qeyd etdiyi kimi, *"Anarın əsas "tədqiqat" obyekti insandır"*[5]. Anarın "Bayram həsrətində", "Keçən ilin son

---

[2]Анар. Пленник века / А.Р.Рзаев. – Баку: Азернешр, – 2010.– с . 47

[3]Yenə orada, -c . 47

[4]Yenə orada, -c . 47

[5]Pərvin. Anar dünyası / P.Ə.Nurəliyeva. – Bakı: Təhsil, – 2015. – s 82.

gecəsi", "Asılqanda işləyən qadının söhbəti", "Taksi və vaxt", "Gürcü familiyası", "Mən, sən, o və telefon", həmçinin "Molla Nəsrəddin – 66" toplusuna daxil olan satirik hekayələri məhz bu qəbildəndir.

Hekayə məqalələrinin birində *"Şəxsən mən özümü hekayə ustası hesab edirəm"*[6]deyən yazıçının sevimli janrlarından biridir. Anarın ilk hekayələri yaradıcılığın başlanğıcı, təşəkkülü və formalaşması haqqında stereotip təsəvvürlərdən uzaqdır. Bu əsərlər onun bütün digər əsərləri ilə eyni səviyyədə dayanır, öz aktuallığını bu gün də itirmir və çağdaş Azərbaycan hekayəsinin təkrarolunmaz nümunələridir. Anarın ilk əsərlərində köhnə ədəbi ənənələr və gənc yazıçının novator axtarışları üzvi şəkildə birləşdirilmişdi. Nəslinin digər istedadlı yazıçıları ilə birlikdə Anar Azərbaycan ədəbiyyatında, xüsusilə, müasirlik və müasir qəhrəmanı əks etdirnək baxımından yeni yollar ortaya qoyur. İlk hekayələrinin yazıldığı zaman kəsimi Anar yaradıcılığında xüsusi bir mərhələ təşkil edirdi. Məhz bu hekayələrdə müasirliyin paradiqmasının özülü qoyulmuş və onun sonrakı yaradıcılığında daha da dərinləşdirilmişdir.

Anarın bir yazıçı kimi tez-tez təhkiyə sənəti, onun janrları barəsində fikir mübadiləsi aparması, müxtəlif ədəbi janrlar haqqında düşüncələrini ifadə etməsi olduqca təbii haldır. Anar bu məqalələrində çox maraqlı elmi fikirlər söyləyir, bir ədəbiyyatşünas alim kimi ədəbi proseslə bağlı ciddi, professional təhlil verir. Burada o artıq publisist kimi deyil, ədəbiyyatşünas alim, ədəbiyyat tənqidçisi, tədqiqatçısı rolunda çıxış edir.

**"Anarın publisistikasında onun bədii və estetik kredosunun formalaşması"** adlananüçüncü paraqrafdayazıçının məqalə və çıxışlarında estetik görüşləri və onların Anarın bədii əsərlərində reallaşdırılması paralel şəkildə təhlil edilir. Belə ki, Anar ədəbi-tənqidi yazılarında aktual mövzulara müraciət etməyi müdafiə edir ("Ağ vərəq üzərində düşüncələr"), yazıçının vətəndaşlıq mövqeyinin zəruriliyini vurğulayır ("Ümumdünya məsuliyyəti"), milli ənənələrə əməl etməyə və eyni zamanda, digər mədəniyyətlərə açıq olmağa

[6]Анар. Чуть ближе к звездам / А.Р.Рзаев. – Баку: Язычы, – 1986.– с 209.

səsləyir (“Ünsiyyət sevinci”, “Okeana tökülən çay”, “O əlçatmaz” və s.).

Qərarların yeniliyi, situasiyaların paradoksallığı, müasir insanın rəngarəng obrazlarının yaradılması “Gürcü familyası”, “Mən, sən, o və telefon” hekayələrində də müşahidə olunur. Bu hekayələrin hər birində janrın tələbləri səviyyəsində qəhrəmanların həyatlarının “dar” (“lokal”) epizodları təqdim olunur. Lakin bu “dar” süjet müəllifin, eləcə də oxucunun səyləri nəticəsində qəhrəmanların daxili dünyasına dalmaqla böyük bədii ümumiləşdirmələrlə gətirib çıxarır. Yazıçı buna hələ ilk əsərlərində özünəməxsus poetikasını xarakterizə edən psixoloji analizin müxtəlif vasitə və priyomları ilə nail olur. Anarın hekayələrinə xarakterik olan paradoksal situasiyalar əslində həyatın və reallığın paradoksallığını göstərməyə xidmət edir. Anar hər hekayəsində ayrı bir psixoloji vəziyyət ortaya çıxır.

Yazıçı hekayədə təsvir olunan situasiyada qəhrəmanlarının daxili sarsıntılarının dərin psixoloji analizini verir. Hər dəfə Anar qeyri-standart bir vəziyyət, qeyri-adi bir qəhrəman seçir və bununla da o dövrün Azərbaycan nəsri üçün yeni bir üslub nümayiş etdirir. Yazıçının estetik görüşlər sistemi bu yolla formalaşır və hər əsərində bu üsluba sadiq qalır. Anarın öz ədəbi-nəzəri əsərlərində formalaşdırdığı bir çox estetik prinsiplər onun hekayə, povest və romanlarında öz bədii əksini tapır. Onun ədəbiyyatı və bütövlükdə ədəbi prosesi qavrama prizmasından süzülüb keçən bədii-estetik düşüncələri, fəlsəfi ümumiləşdirmələri ədəbi-bədii təcrübəsində təzahür edir və möhkəmlənir. Yazıçının ədəbi-nəzəri görüşləri yalnız onun şəxsi yaradıcılıq təcrübəsinə deyil, həmçinin özündən əvvəlki və müasir ədəbiyyatın mükəmməl öyrənilməsinə əsaslanır. Yazıçı yalnız müasirləri və müasirliyin gerçək ədəbi obrazını yaratmır, bunları adekvat ifadə etmək üçün yeni bədii vasitələr axtarır.

**“Anarın mətnlərinin simvolikası və onun həyat fəlsəfəsi”** adlanan dördüncü paraqrafda yazıçı və publisistin əbədi fəlsəfi məsələlərə marağından və bunları çoxmənalı simvollar vasitəsilə açıqlamaq bacarığından danışılır. Yazıçını narahat edən fəlsəfi kateqoriyalardan biri Zamandır. O, bu rəmzi obrazın çoxmənalılığını, sirrini, dərinliyini başa düşməyə və əks etdirməyə can atır. Dəfələrlə

öz bədii əsərlərində, həmçinin bədii-publisistik düşüncələrində, esselərində, qısa aforistik qeydlərində bu kateqoriyaya müraciət edir. Anar zaman və ədəbiyyatın münasibəti məsələsi haqqında “Roman və zaman” məqaləsində danışır. Zaman kateqoriyası yazıçının “Gürcü familyası”, “Taksi” hekayələrində, “Macal” romanında bədii həllini tapmışdır.

Tənhalıq, həyat və ölüm, insan varlığının əbədi olmaması kimi əbədi-fəlsəfi kateqoriyalar da yazıçının diqqət mərkəzindədir. Yazıçıda müasir həyatın fəlsəfəsini anlamaq və bunu bədii əsərlərində canlandırmaq istedadı güclüdür. Anarın öz publisistik məqalələrində fəlsəfi həqiqət, müəmmalar və insan varlığının ziddiyyətlərini dərk etmək yolundakı axtarışları onu daha cəlbedici bədii ifadə vasitələri və üsulları axtarmağa təhrik edir. Belə bədii ifadə vasitələri arasında onun bir çox əsərlərində müşahidə edilən incə simvolika mühüm yer tutur.

Anarın yaradıcılığında milli xarakterin əsas daşıyıcısı olan müasir qəhrəman haqqında danışılan birinci yarımfəslə yekun vuraraq demək olar ki, müasirlik və müasir insan obrazının açıqlanmasında yazıçı dərin sətiraltı mənalardan istifadə edir, özünü və qəhrəmanlarını narahat edən ideyaları sanki rəmzi işarələrlə gizlədir. Bunları fikir süzgəcindən keçirərək, başa düşürük ki, yazıçı üçün birinci yerdə insan amili dayanır. Onun qəhrəmanı çağdaş dövrün insanıdır, ancaq bu, siyasi, ideoloji rakursda deyil, ekzistensial, mənəvi-əxlaqi ölçülərdə və milli tutumlu obrazdır. Anarın düşüncələrinə görə, müasirliyin başlıca fenomeni özündə milli dəyərləri, milli xarakteri təcəssüm etdirən insandır. Yalnız bu milli dünya, azərbaycançılıq dünyası vasitəsilə yazıçı yaratdığı aləmə – qlobal, ümumbəşəri aləmə köklənə və bu dünyaya münasibətini ifadə edə bilər.

Birinci fəslin ikinci yarımfəsli – **“Anarın yaradıcılığında müasir gerçəklik kontekstində qəhrəmanların taleyi”** üç paraqrafdan ibarətdir.

**“Anarın incəsənət adamı zaman müstəvisində”** adlanan birinci paraqraf yazıçının nəsr və publisistikasında yaradıcı insan obrazlarının təhlilinə həsr edilmişdir. Bu əsərləri belə qruplaşdırmaq olar: 1)bu və ya digər incəsənət xadiminin adını əbədiləşdirmək; 2) yaradıcı şəxsiyyətin təbiətini dərk etmək, onun varlığına nüfuz etmək;

3) mədəniyyətimzin qüruru olan adları saxtalaşdırmağa can atanlara əsaslı cavab vermək. Anarın yaratdığı portret oçerklər və ya müxtəlif incəsənət sahələrindən olan şəxsiyyətlərin portretləri bunlara həsr edilmişdir və həmin əsərlərin mərkəzində konkret bir şəxsin obrazı dayanır. Yazıçı öz bədii publisistikasında Azərbaycan mədəniyyətinin zəngin panoramasını təşkil edən tarixi obrazlar qalereyası yaratmışdır. Bu paraqrafda bunlarla paralel olaraq, incəsənət və yaradıcı şəxsiyyət obrazının olduqca maraqlı bədii təcəssümünü tapdığı "Dantenin yubileyi" hekayəsi də nəzərdən keçirilir. Təhkiyənin mərkəzində incəsənətdə uğursuzluğa düçar olan insanın həyat və taleyi dayanır. Povestin baş qəhrəmanı Feyzulla Kəbirlinski yalnız Anarın yaradıcılığı üçün deyil, bütün Azərbaycan ədəbiyyatı üçün xüsusi bir xarakterdir. Burada yazıçı bütün məqalələrində vurğuladığı kimi, bədii obrazlar vasitəsilə incəsənətin ali missiyasını açıqlayan bir novator kimi çıxış edir.

Yazıçının yaradıcı insan, sənət adamı obrazını yaratmaq istəyini, xüsusilə vurğulamaq istərdik. Bu təkcə onun görkəmli sənət və mədəniyyət xadimlərinə həsr olunmuş esse və məqalələrində deyil, məqalə-düşüncələrində də reallaşır. Bədii baxımdan bu mövzu "Dantenin yubileyi" hekəyəsində hərtərəfli açılır.

Bununla bağlı olaraq, obrazların kəskin xüsusiyyətlərinin rədd edilməsi, qəhrəmanların barışmaz antipodlar kimi qarşı-qarşıya qoyulması, qəhrəmanların "müsbət" və "mənfi" olaraq bölünməsi Anar poetikasına xas olan xüsusiyyətlərdir. Qəhrəmanların hər biri onun tərəfindən sevilir və başa düşülür. Anar bir psixoloq kimi insanların xarakterinə nüfuz edərək, qəhrəmanların hərəkət və davranışlarını anlamağa çalışır və onların taleyini bu və ya başqa zaman kontekstində obyektiv qiymətləndirir.

**"Anar və roman janrı: nəzəriyyə və təcrübə"** adlanan ikinci paraqrafda Anarın silsilə məqalələrində əks olunmuş ("Ağ vərəq üzərində düşüncələr", "Roman və zaman" və b.) ədəbi janrlara, xüsusən roman janrına münasibəti nəzərdən keçirilir. Anar üçün hekayə və roman janrı əsas janrlardır, povest isə, onun fikrincə, "sadəcə hekayələr silsiləsidir". *"Roman böyük bir qitə və ya ümmandır, ucsuz-bucaqsız və nəhayətsiz, hekayə isə ada və ya göldür.*

*Roman bütün yaddaşın cəmlənməsi və onun konseptual seçiminə tabelikdir, hekayə yaddaşın bir küncüdür, onun lokal kəsimidir"*[7].

Burada onun ilk romanı – "Macal" da təhlilə cəlb edilir, bu əsər, bir növ, Anar romanlarının bədii modelidir. Roman janrına müraciət yazıçıya nəinki baş qəhrəman Fuad Salayevin uşaqlıqdan başlayaraq yetkin yaşlarına kimi bütün həyatını, eləcə də müharibə illərindən sonrakı Bakı mühiti fonunda müxtəlif sosial təbəqələrdən olan xeyli sayda personajların həyatını göstərməyə imkan verdi. "Macal" romanında sanki Anarın roman janrı və onun praktiki təcəssümü haqqında nəzəri görüşləri bir araya gəlir, bu görüşlər yazıçının mövqeyi və dünyaya münasibətinin tamlığını əks etdirir, o hesab edir ki, vicdanla hər hansı bir kompromis insanın qəlbində mütləq bir iz buraxır, ona həyatını tam mənada yaşamağa imkan vermir, həyat prinsiplərinin düzgünlüyünə daimi şübhələr bütün varlığını zəhərləyir.

**"Anarın yaradıcılığında Qarabağ faciəsi"** adlanan üçüncü paraqrafdayazıçının həm publisistikasında, həm də bədii yaradıcılığında Qarabağ mövzusu nəzərdən keçirilir. Anar dəfələrlə Qarabağ mövzusuna müraciət etmişdir. Bu gün onun bu mövzuda yazdığı əsərlər publisistik ədəbiyyatın böyük bir layını təşkil edir, bu əsərlər təkcə yazıçının aktiv vətəndaşlıq mövqeyinin göstəricisi yox, həm də ehtirasla, həyəcanla, ölkənin taleyi üçün bir həyəcan, narahatlıq hissi ilə dolu söz ustadının fikirləri baxımından təsirlidir. Tərkibində bir çox proqram məqalələri, çıxışları, müxtəlif ictimai-siyasi problemlərlə, müasir dünyamızın tarixi prosesləri ilə bağlı müraciətlərini birləşdirmiş "Əsrin əsiri" toplusunda "Qarabağ faciəsi siyasi süjetlər fonunda" rubrikası xüsusilə, seçilir.

Anarın Qarabağ problemi ilə bağlı bütün hiss və düşüncələrinin bədii kvintessensiyası "Otel otağı" povestində əksini tapmışdır. Müəllifin povestinin əsas mövzusunu yenidənqurmadan əvvəlki və müasir Azərbaycan, onun problemləri təşkil edir. Bu, öz bədii əksini Qarabağdan – Şuşadan olan türkoloq alim, ali məktəb müəllimi Kərim Əsgəroğlunun həyat və taleyində tapır.

---

[7]Анар. Чуть ближе к звездам / А.Р.Рзаев. – Баку: Язычы, – 1986. – с 209.

Xüsusilə vurğulamaq lazımdır ki, Anar bütün əsərlərində öz müəllif mövqeyini ortaya qoyur. Bütün Qarabağ münaqişəsi boyu Anar ədalətin bərpasının həssas və barışmaz tərəfdarlarından biri olmuşdur. O, bədii sözün köməyi ilə bədii publisistikasında, odlu-alovlu çıxışlarında, məktub müraciətlərində Qarabağ probleminə aydın və kəskin polemik münasibətini ifadə edir. Hansı janrda olmasından asılı olmayaraq, Anarın yazdıqları vahid bir bütöv təşkil edir. Biz onun Qarabağ probleminə həsr olunmuş publisistik əsərlərini və nəsrini, xüsusilə, "Otel otağı" povestini müqayisə edərək, buna bir daha əmin oluruq.

Birinci fəslin üçüncü yarımfəsli **"Anarın bədii və publisistik əsərlərində onun mənəvi dəyər meyarları və milli substansiyası"** iki paraqrafdan ibarətdir.

**"İnsan və cəmiyyət: qapalı çevrə və ya qaçılmaz qismət"** adlanan birinci paraqrafda yazıçının "Gecə düçüncələri" miniatürlərinin birində *"Allahın müəmması"*[8] adlandırdığı insanların gündəlik hadisələr fonunda gizli və daxili dünyasını təhlil etdiyi "Dairə" ("Ağ liman") povestindən söhbət açılır. Anar çox zaman esselərində həyatı çevrə ilə, daha doğrusu, *"hər gün ətrafında sıxılaraq, səni tənhalığa məhkum edən" "qapalı çevrə"*[9] ilə müqayisə edir. "Dairə" arxetipi əsərin yalnız adını deyil, "həyatın dairəsi"ndən çıxmağa imkanları olmadığı üçün qismətləri iztirab olan qəhrəmanların həyatını simvolik şəkildə əks etdirən povestin bütün quruluşunu müəyyən edir. Anarın ilk əsərlərindən başlayaraq, bütün yaradıcılığında yer alan milli və ümumbəşəri, fərdi və ümuminin birləşdirilməsi "Ağ liman"da daha aydın səslənir: qəhrəmanların yaşayış yerlərindən, milliyyətlərindən, dini mənsubiyyətlərindən asılı olmayaraq, onlar hamı üçün ümumi olan hiss və həyəcanları yaşayırlar, eyni zamanda, onlar tamamilə fərdidirlər.

**"Mövcud olmayan mərtəbələrin simvolikasının bədii təcəssümü"** adlanan ikinci paraqrafda "Beşmərtəbəli evin altıncı mərtəbəsi" romanından söhbət açılır. İlk baxışda bu, məhəbbət

---

[8]Анар. Сочинения: [в 5 томах] / А.Р.Рзаев. – Баку: Юрд, – т.3. – 2006. – с 331.
[9]Yenə orada, s. 312

romanıdır, lakin romanın ideyası həddindən artıq genişdir. Bu sevgi hekayəsi Anar tərəfindən dərin işlənilmiş "mövcud olmayan mərtəbə"yə – "beşmərtəbəli binanın altıncı mərtəbəsi"nə doğru dəyişir, böyüyür. Əsərin baş qəhrəmanı Təhminənin səadət haqqında, onun həyatın mənası və məqsədi haqqında təsəvvürlərinin simvoludur. Öz həyat "dairəsindən" çıxmağa qadir olmayan Nemətdən fərqli olaraq, Təhminə "dairə" hüdudlarından çıxmağa can atır, demək olar ki, buna nail olur və ölür. Anarın *"şəxsiyyətə istənilən təzyiq, onun suverenliyinə təcavüz, eyni zamanda millətin suverenliyini məhv edir"*[10] sözləri bu ideya ilə səsləşir. Yazıçının, demək olar ki, ən məşhur "Ağ liman" və "Beşmərtəbəli evin altıncı mərtəbəsi" əsərlərinin əsas məqsədi müasir insanın dünyasını psixoloji cəhətdən açmaqdır. Yazıçı bu əsərləri ilə müasir Azərbaycan ziyalılarının bütün həyatını sosial-əxlaqi görüşləri fonunda göstərmişdir. Burada baş qəhrəmanlarla birlikdə təsvir edilmiş digər personajlar müasir cəmiyyət adlanan bir qurum daxilində rəngarəng insan xarakterlərini təcəssüm etdirirlər.

Bəzi tənqidçilərin yazıçının Məmməd Nəsir, Dadaş, Səftər kimi obrazlarını lazımsız hesab etmələri əsassız səslənir. Bu personajlar əsas qəhrəmanların təsviri üçün fon deyil, onlar müəllifin əks elətdirmək istədiyi bu və ya digər sosial təbəqənin parlaq nümayəndələridirlər, bütövlükdə isə onlar müasir cəmiyyət adlanan cəmiyyətə birləşən insan xarakterlərinin müxtəlifliyini təmsil edilər.

Həm bədii, həm də publisistik əsərlərində Anar didaktikaya keçmədən, təbliğat aparmadan, qəhrəmanların uyğun və uyğun olmayan mənəvi dəyər ölçülərini əks etdirir. Yazıçının əsas texnikalarından biri onun fikirlərini oxucuya maneəsiz, lakin çox təsirli şəkildə çatdırmasına kömək edən simvolizmdir.

Birinci fəslin dördüncü yarımfəsli **"İrreallığın reallığı Anarın dünyagörüşündə və bədii təqdimatında"** iki paraqrafdan ibarətdir.

**"Anarın fantakstik povestində insan və dünya və onun fantastika anlayışı"** adlanan birinci paraqrafda yazıçının irreallığa, bədii şərtiliyə, o cümlədən fantastikaya baxışları çoxlarının fantastik

[10]Анар. Сочинения: [в 5 томах] / А.Р.Рзаев. – Баку: Юрд, – т.3. – 2006. – с490.

əsər kimi dəyərləndirdikləri "Əlaqə" povesti kontekstində nəzərdən keçirilir. Burada V.Kovskinin göstərməyə cəhd etdiyi yadplanetlilər, kosmik əlaqələrə müraciət yoxdur. Povestdə baş verənlərin irreallığının iki versiyası nəzərdən keçirilir. Birinci qəhrəmanın psixi pozuntusudur, "psixiatr" bunu şəxsiyyətin "derealizasiyası" adlandırır. İkincisi ufologiyaya aiddir, ünsiyyətdən qaçan, hamıdan ayrı davranan, insanlarla yad rəftar edən tələbə yerdən uzaq sivilizasiyaya müdaxilə etmək üçün rahat bir tramplindir.

"Əlaqə" povestində Anar şəxsiyyətin cəmiyyətdə yadlaşmasını göstərir, eyni zamanda dünyanın birtərəflili qavranılmasına qarşı çıxış edir. Povestdə sehrli, gerçəklikdən uzaq, rasional düşüncə mövqeyindən izah olunmayan varlığa inamı aydın hiss edirik. Anar "Gələcəyi duymaq (fantastik ədəbiyyat haqqında)" məqaləsində *"fantastik gələcək əsasında bizim bugünkü problemlərimizi, həyəcanlarımızı, ümid və axtarışlarımızı duymaq"*[11] marağından danışır. Beləliklə, Anar müasir dünya və insanı qeyri-real üsullar vasitəsilə, fantastik şərtilikdən istifadə etməklə təsvir yolunu tutur. Deməliyik ki, qəhrəmanların davranışları ilə xarakterizə olunan intuisiya və şüuraltı düşüncə bu əsərləri müxtəlif dərəcədə birləşdirən əsas elementlərdir. Müəllif milli folklordan qaynaqlanan bədii publisistikasında həyatı sürrealistcəsinə əks etdirməyə can atır.

**"Anar və sürrealizm"** adlanan ikinci paraqraf yazıçının əsərlərində əksini tapmış dünyaya sürrealist baxışlarının təhlilinə həsr edilmişdir. O özü də milli folklora əsaslanaraq, bədii publisistik əsərlərində sürrealist yanaşmanı müdafiə edir. Üslubunun bu xüsusiyyəti Anarın 90-cı illərdə qələmə aldığı əsərlərində –"Qırmızı limuzin" (1991), "Vahimə" (1993), qismən də "Otel otağı" (1994) povestində daha parlaq əks olunur. Yazıçı bu əsərlərində həyatı sürrealist əksetdirmə üslubundan istifadə edir. Eyni zamanda, bütün bu irreallıq və onun bədii əsərlərdə əksi mücərrəd xarakter daşımır, bunlar Anarın şəxsi hisləri, hətta yuxuları ilə bağlıdır. Yazıçı

---

[11]Анар. Сочинения: [в 5 томах] / А.Р.Рзаев. – Баку: Юрд, – т.5. – 2008. –с 87.

çıxışlarında yuxunu bir növ məlumat mənbəyi, *"irrasional, sürrealist rəssamın əsəri"*[12] adlandırır.

Birinci fəslə yekun vuraraq belə bir nəticəyə gəlirik ki, Anarın yaradıcılığı müasir dünyanın bədii dərki və müasir insan obrazlarının yaradılması meyillərinin məcmusudur. Bu cəhətdən onun nəsr və publisistikası bir-birini tamamlayır, oxucu ilə nəinki obrazların dili ilə danışmağa, həm də öz hiss və düşüncələrini publisistik səmimiyyətlə ifadə etməyə imkan verir. Ədibin bədii nəsri və publisistikası həm də janr rəngarəngliyi ilə də zəngindir. Onun əsərləri xüsusi çoxcəhətliliyi ilə seçilir: bunlar istər mövzu, problematika, ideya, istərsə də bədii ifadə vasitələrinin seçilməsi, həmçinin gerçəkliyin əks etdirilməsi üsulları, anarvari "sahilsiz realizm" anlamına uyğun olan bədii metodu və eyni zamanda realizmlə yanaşı, digər cərəyanların xüsusiyyətlərini də özündə birləşdirməklə fərqlənir.

İkinci fəsil **"Tarixi keçmiş, onun Anarın nəsri və publisistikasında əksi"** adlanırvə üç yarımfəsildən ibarətdir.

**"Tarix və ədəbiyyat: problemlərin paralelliyi və şərtliliyi"** adlanan birinci yarımfəsil iki paraqrafa ayrılmışdır.

Birinci paraqraf **"Yazıçıların tarixi problematikaya müraciətlərinin ilkin şərtləri"** ədəbiyyatda "tarixi nəsr" anlayışına müraciətin zəmini və səbəblərinin nəzəri dərkinə həsr edilmişdir. Romantizm dövründə çiçəklənməyə başlayan tarixi nəsr sonrakı dövrlərdə də inkişafını davam etdirmiş və bu gün də şöhrətini qoruyub saxlamaqdadır. Keçmişə maraq bir çox səbəblərlə, ilk növbədə, tarixi yaddaşa maraqla bağlıdır. Anar tez-tez insan yaddaşının sirləri və qeyri-adiliyi haqqında mülahizələr yürüdür, bunları *"canlanmış anların zənciri"*[13] adlandırır.

Keçmiş – a) tarixi əsərlərin yaranması üçün, b) müasir oxucuya təqdim edilməsi üçün, c) tarixin, tarixi hadisələrin və tarixi şəxsiyyətlərin üzə çıxarılması üçün başlıca şərtidir. Müəllifin söhbət açdığı keçmiş, yaxın keçmişi istisna etməklə, həmişə onun şəxsi müşahidələrinin nəticəsi deyil. Bu ya yaddaş, ya sənədlər və ya yazılı

---

[12] Анар. Сочинения: [в 5 томах] / А.Р.Рзаев. – Баку: Юрд, – т.3. – 2006. – с 400.
[13] Yenə orada – с 576.

mənbələr, ya da bəzən reallığın şahidləri vasitəsilə yazıçının oxucuya bu və ya digər formada çatdırdığı tarixi həqiqətdir. Əlbəttə, yaxın keçmişdən söhbət gedəndə burada əsas rolu insanların obrazının bu və ya digər epizodlarını unutmayan yaddaş faktoru oynayır. Bu halda xatirələr əsərin əsas süjetini təşkil edən elementə çevrilir. Buraya Anarın "xatirə-roman" adlandırdığı "Sizsiz" və "xatirə-povest" janrı adlanan "Həyat ağrıyır" əsərlərini aid etmək olar.

Beləliklə, ədəbiyyatda tarixə, tarixi problematikaya müraciət etmə səbəblərindən danışarkən, ilk növbədə, tarix və müasirliyin birləşməsini, onların ayrılmazlığı və sıx əlaqəsini, yazıçıların qarşısına müasir həyatın qoyduğu məsələlərə cavabları tarixdə axtarmaq cəhdlərini, bəzən mövcud rejimin qadağa qoyduğu mövzulardan yan keçmək istəklərini, əksər hallarda isə millət, xalq, bütövlükdə bəşəriyyət üçün əhəmiyyətli hadisə və adları əbədiləşdirmək arzusunu qeyd etmək lazımdır.

İkinci paraqrafda **"Anarın yaradıcılığında keçmişin narrativi və onun müasirliyə nisbəti"** yazıçının tarixi mövzularda yazılmış müxtəlif janrlı əsərləri nəzərdən keçirilir. Təhlildən belə qənaətə gəlmək olar ki, Anar bədii formaya deyil, esseistikaya, publisistikaya, sənədli və bədii başlanğıcın sintezinə üstünlük verir. Anarı narahat edən mövzulardan biri Azərbaycan xalqının "ana kitabı" "Kitabi-Dədə Qorqud"la bağlıdır. Yazıçı bunun həllini müxtəlif formalarda - povest, publisistik məqalə, esse şəklində reallaşdırır. Anar dönə-dönə Cəlil Məmmədquluzadə obrazına müraciət edir ("Anlamaq dərdi" essesi, "Bir qədər ulduzlara yaxın" məqaləsi və s.). Yazıçının "Yaxşı padşahın nağılı" alleqorik hekayəsi də maraqlıdır. Bütün bu əsərləri keçmişin narrativlərinin müasirliklə sıx əlaqədə olması və bilavasitə ona uyğunlaşması birləşdirir.

Anarın əsərlərində təsvir etdikləri yalnız xalqın, onun ayrı-ayrı nümayəndələrinin həyatı deyil, həm də xalqın bir nümayəndəsi kimi yazıçının şəxsi qayğıları və düşüncələri vasitəsilə çatdırdığı öz həyatı, taleyidir. Bu təkcə xalqın və onun müəyyən şəxsiyyətlərinin deyil, həm də yazıçının daxili dünyasının dərinliklərinə retro səyahətdir. Dünyanın və insanın belə əksi Anarın bir çox əsərlərində, xüsusilə də bioqrafik memuar nəsrində daha çox özünü göstərir.

İkinci fəslin ikinci yarımfəsli **“Anarın memuaristikası tarixi əksetdirmə formalarından biri kimi”** üç paraqrafdan ibarətdir.

Birinci paraqraf **“Memuar janrları: nəzəriyyə və tarix”** memuaristikanın tarixi və nəzəriyyəsinə qısa ekskursiya xarakteri daşıyır. Burada bu janrın dünya ədəbiyyatındakı ən mühüm nümunələrinin adları sadalanmışdır (Russonun “Tövbə”, Gertsenin “Olmuşlar və düşüncələr” əsəri və s.). Belə bir fikir irəli sürülür ki, memuarları, haqlı olaraq, həm sənədli, həm də bədii ədəbiyyata aid etmək olar, çünki bu janr *“sinkretik təbiətə”*[14] malikdir. Memuarların bu ikili təbiəti onların tədqiqatına iki yanaşmanı formalaşdırmışdır: estetik və tarixi. Memuarçı üçün reallıq müxtəlif formalarda təzahür edən xatirələrin gerçəkliyidir. Onun əsas növləri ilə yanaşı, həmçinin müəllif yanaşması, ideyası, materialı təqdim etmə forması, sənədli və bədii başlanğıcın nisbəti, həcmi və s. kimi subyektiv meyarlarla şərtləndirilən formaları da var. Yazıçı memuaristikasında müxtəlif təhkiyə növləri mövcuddur və bunlar memuar janrının, məsələn bədii portretlərin müxtəlif modifikasiyaları üçün əsas təşkil edir.

Anarın yazdığı hər şey əsas məqsədi yazıçının yaradıcılığının əsas komponentlərini təşkil edən bədii və sənədli ədəbiyyatın müqayisəsi olan tədqiqat işimiz üçün böyük maraq doğurur. Yuxarıda da qeyd etdiyimiz kimi, yazıçının mümuaristikasında memuar janrının modifikasiyasına xidmət edən müxtəlif təhkiyə tipləri var. Bunlardan biri Anar yaradıcılığında fundamental şəkildə təmsil olunan ədəbi portretdir.

**“Tarix portretlərdə: Anarın yaradıcılığında bədii portret janrı”** adlanan ikinci paraqrafmemuar formalarından biri olan bədii portret janrının araşdırılmasına və onun Anarın yaradıcılığında necə əks olunmasına həsr edilmişdir. Bir qayda olaraq, Anarın bədii portreti onun yaratdığı xarakterin müəllif konsepsiyasını əks etdirən dünya modelidir. Onun bədii portret qəhrəmanı real insandır. Eyni zamanda, bu, şəxsi və yaradıcılıq taleyini yazıçının sənədli və bədii materiallardan yararlanaraq, öz fikir süzgəcindən keçirib təqdim

[14]Чернец, Л.В. Литературные жанры / Л.В.Чернец. – Москва: МГУ, – 1982. – с 12.

etdiyi obrazdır. Anarın bədii portretinin estetik mahiyyəti həm qəhrəmanın zahiri xüsusiyyətlərinin, həm də davranış tərzinin, xarakterinin, dilinin, düşüncəsinin, baxışlarının, bütövlükdə tərcümeyi-halının reallığa daha yaxın əks etdirməsindədir. Anarın bədii portretləri onun müasirlərinin tərcümeyi-halı əsasında yaradılmışdır, lakin bədii portretlərinin daha böyük qismi yazıçının zaman kəsiyi ilə ayrıldığı keçmişin görkəmli şəxsiyyətlərinə həsr edilmişdir. Anar həm polemik məqalələrində, çıxışlarında, analitik məqalələrində, həm də ədəbi portret janrında öz münasibətini və mövqeyini ifadə edərək, xalqın mədəniyyətinin keşiyində dayanır. Təhlillər göstərdi ki, Anarın yaratdığı ədəbi portretlər aşağıdakı ümumi parametrlərə malikdir: real şəxsiyyətin xarakterini açır, onlardakı sənədli faktlar müəllifin ehtimalları da ola bilər, süjetdə əks olunmuş situasiyalardan asılı olaraq hər bir portretin öz üslubu, melodiyası və intonasiyası var, yazıçının yaşadığı zaman və yaradıcılığında personajların taleyi bir küll halında birləşdirirlir. Bioqrafik memuar növlərindən biri kimi, bədii portret təbiəti etibarilə keçmiş və indini birləşdirir, tarixi zamanın bütöv obrazını konkret material əsasında – öz dövrünün timsalı olan qəhrəmanın simasında təqdim edir.

**"Anarın avtobioqrafik memuar nəsrinin xüsusiyyətləri"** adlanan üçüncü paraqraf yazıçının "Sizsiz" (valideynləri haqqında xatirə-romanı), "Həyatım ağrıyır" (yazıçının dayısı Ə.Məmmədxanlı haqqında xatirə-povesti), "Gecə düşüncələri" (gündəlik-esse) kimi əsərlərinin araşdırılmasına həsr edilmişdir. Bu avtobioqrafik memuar nümunələrinin hamısında Anar öz şəxsi bioqrafiyası əsasında keçmişin müxtəlif formalarda reprezentasiyasını yaratmışdır. Yazıçı öz bədii-tənqidi məqalə və esselərində tez-tez avtobioqrafik memuarlara münasibətini bildirir, beləliklə də, bu janrın həm təcrübəçisi, həm də nəzəriyyəçisi kimi çıxış edir: *"Yazıçının həyat təcrübəsi ilə dolmuş yaddaşı memarın heykəl ucaltmaq üçün artıq olanlardan imtina edərək, yalnız gərəkli bilib saxladığı həmin mərmərdir"*[15]. Anar bioqrafik memuar əsərlərində həm təhkiyəçi

[15]Анар. Чуть ближе к звездам / А.Р.Рзаев. – Баку: Язычы, – 1986. – с 207-208.

müəllif, həm qəhrəman, həm də təhkiyənin personajlarından biri kimi çıxış edir, bu da təhkiyənin subyektiv-şəxsi layını gücləndirir. Bunlar bədii və sənədli başlanğıcın bir vəhdət təşkil etdiyi əsərlərdir.

Anarın bioqrafik memuar yaradıcılığının əsas xüsusiyyətləri aşağıdakı tipoloji cəhətlərdə ifadə olunur: ayrı-ayrı faktların və subyektiv təəssüratların fəlsəfi ümumiləşdirilməsi, lirik dominant, yadda saxlanılanlar və təsvir olunan metafiziki refleksiya, obyektiv faktların psixoloji və subyektiv təəssüratlar fonunda araşdırılması, yaradıcı özünüifadə, ədəbi prosesin və bütöv bir epoxanın tarixi-mədəni kontekstdə elmi-tənqidi dərki, polemiklik və eyni zamanda yüksək sənətkarlıq.

**"Anarın yaradıcılığının yeni bədii-publisistik janrları kontekstində milli tarix və mədəniyyət xronikası"** adlanan üçüncü yarımfəsil iki paraqrafdan ibarətdir.

Birinci paraqrafda – **"Anarın publisistikasında tarixin əks olunma xüsusiyyətləri"** – yazıçının tarixi mövzulara həsr edilmiş publisistikası nəzərdən keçirilir. Burada yazıçının publisistikasının müxtəlif formaları, publisistik üslubun ənənəvi şəkilləri ilə yanaşı, Anar qələmi ilə yenilənmiş müxtəlif modifikasiyaların da yer aldığı "Azərbaycan ədəbiyyatı, mədəniyyəti, incəsənəti" adlı üçcildlik toplusu diqqət mərkəzinə çəkilmişdir. Məsələn, üçcildliyin ilk məqaləsi "Odlar yurdunun mənəvi sərvəti" qədim dövrlərdən başlayaraq, ölkədəki siyasi vəziyyətdən asılı olmadan nəsillərdən nəsillərə ötürülən mənəvi dəyərlər kontekstində azərbaycanlıların həyatının təhlilidir. Tarixi keçmişimizin mühüm mərhələləri müəllif tərəfindən Azərbaycanda sonrakı ictimai-siyasi proseslərin inkişaf zəmini kimi təqdim edilir.

Bu gün birmənalı şəkildə demək olar ki, Anar keçmiş Sovetlər İttifaqının dağılmasından əvvəl və sonra siyasi reallıqların önündə dayanan milli ziyalı təbəqənin ən fəal nümayəndələrindən biridir. Yazıçının kəskin publisitikası (publisitik sözü) öz tarixi keçmişini unutmamağa səslədiyi, bütün zamanlar üçün ümumbəşəri dəyərlərin prioritet olaraq qalacağı vahid bir mənəvi müstəvi yaratmağa çalışdığı gələcək nəsillərə ünvanlanmışdır.

İkinci paraqraf – **"Anarın "Yaşamaq haqqı" traktatı tarixin əks etdirilmə forması kimi"** – yazıçının publisistik yaradıcılığının orijinal janrlarından birinə həsr edilmişdir. Anarın traktat janrına müraciət etməsinin tələbi öz ölkəsinin tarixi və mədəniyyəti ilə, ideoloji doktrinası ilə bağlı prinsipial məsələləri kəskin polemik dillə düşüncələr formasında ifadə edə bilməsiylə əlaqədardır. O, traktatın məlumatdan yararlanmaq, qaldırılan problemlərə öz münasibət və baxışlarını bildirmək, geniş ümumiləşdirmələr vermək kimi imkanlarından ustalıqla istifadə edir. Traktatın əvvəlində verdiyi "Mövzuya giriş"də yazıçı xəbərdarlıq edir ki, *"kitabda siyasət və tarix çoxdur. Axı mədəniyyət siyasətlə ayrılmaz surətdə bağlıdır, ədəbiyyat və mədəniyyət isə tarix fonunda inkişaf edir"*[16]. Anar traktat janrına müraciət etməklə öz yaradıcılığında, xüsusən də publisistikasında istifadə etdiyi orijinal janrları artırır. Onun "Yaşamaq haqqı" adlanan "tarixi-kulturoloji traktatı" publisistikasının janr modifikasiyalarından biridir, yazıçı burada Vətən tarixinin geniş lövhələrini verir və bu lövhələr fonunda onunla ayrılmaz surətdə bağlı olan mədəniyyəti, ədəbiyyatı, incəsənəti, siyasəti də nəzərdən qaçırmır. Bu kitabı oxuduğumuz zaman bu janrın nə qədər doğru formalaşdırılmasının şahidi olursunuz. Bu bəzi tarixi və mədəni faktların, tarixin müxtəlif məqamlarının poelmik müdafiəsini elmi izah edir ki, bu da traktat janrına müvafiqdir, eyni zamanda bu müəllifin şəxsi qavrayışına, şəxsi xatirələrinə əsaslanan, onun baxış bucağından keçirilən təhkiyədir.

**Nəticədə** tədqiqata yekun vurulmuşdur. Qeyd edilir ki, istedadlı nasir, dramaturq, bədii söz sənətinin qüdrətli ustası Anar öz fikirlərini ifadə etmək üçün publisistikadan da istifadə edir, bəzən faktlara dayanan sənədli yazı üslubuna da meyil göstərir. O, bədii publisistikasında onu narahat edən məsələlərə polemik formalı kəskin sosial məqalələri, yazıçı mühakimələri, esselərində toxunur, bu zaman daha çox öz zəngin həyat təcrübəsinə, şəxsi xatirə və təəssüratlarına, bütövlükdə öz dünyagörüşünə əsaslanır.

---

[16]Анар. Литература, искусство, культура Азербайджана: [в 3 томах]/ Рзаев А.Р. – Баку: Letterpress, – т.3. – 2013. – с 13.

Anarın nəsri və publisistikası onun dünya və insan araşdırmasında iki başlanğıcı birləşdirir – obrazlı-bədii və bədii-sənədli. Bu iki başlanğıc söz sənətinin bu və digər növlərinə xas cəhətləri qoruyaraq, qəribə bir ecazkarlıqla bir-birinə qarşılıqlı təsir edir, bir-birini tamamlayır. Bunlar əsas başlanğıc mövqelərində uyğun gəlməklə yanaşı, yazıçının yaradıcı təfəkkürünün iki müxtəlif inkişaf istiqamətini müəyyən edir. Onların arasındakı ümumiliyin əsasını Anarın vətəndaş və sənətkar kimi ətraf mühitə, bu dünyanın sakini olan insanlara, öz vətəninin keçmişinə, bu gününə və gələcəyinə biganə qalmaması, həmçinin bir söz ustası kimi Anarın istedadının ona həm bədii nəsrdə, həm də publisistika sahəsində əsl mənada incilər yaratmağa imkan verən çoxcəhətliliyini təşkil edir.

**Dissertasiyanın əsas müddəaları tədqiqatçının aşağıdakı elmi məqalələrində, respublika və beynəlxalq konfransların məqalələrində öz əksini tapmışdır:**

1. Məmmədova, E.E. Anarın “Ağ qoç, qara qoç” əsərində nağıl motivləri // “Kitabi-Dədə Qorqud” və dünya eposçuluq ənənəsi Beynəlxalq elmi konfransın materialları, –Sumqayıt: – 16-17 dekabr, – 2015, – s.210-212
2. Мамедова, Э.Э. Анар и его герой: Нравственные параметры личности // – Баку:Международный научно-теоретический журнал. Язык и литература, – 2017. № 2, – с.239-242.
3. Мамедова, Э.Э., Искендерова, Н.В. Женщина и общество в произведениях Анара // Təkrarlanan mədəniyyətlərdə prototiplər və/və ya mədəniyyət genomları müqayisəli ədəbiyyat və mədəniyyət VII Beynəlxalq elmi konfransı, – Bakı: Xəzər Univeristeti nəşriyyatı, – 20–21 aprel, – 2017, – s.30-31.
4. Мамедова, Э.Э., Искендерова Н.В. Многоцветье «Белой гавани», или о вопросах гендера и общества в повести Анара // Sumqayıt Dövlət Universitetinin Elmi xəbərləri, Sosial və humanitar elmlər bölməsi, – 2017. № 4, –s. 41-46.

5. Мамедова, Э.Э. Исторический нарратив и его соотносимость с современностью в творчестве Анара // Turkey: Sosial sciences studies journal, Vol:4, İssue:23, – 2018, – c. 4478-4483.

6. Мамедова, Э.Э. История и культура Азербайджана в публицистике Анара // Şəxsiyyət, cəmiyyət, dövlət: qarşılıqlı münasibətlərə müasir yanaşmalar. Respublika elmi konfransının materialları. Mingəçevir Dövlət Universiteti, Mingəçevir, – 6-7 dekabr, –2019, –c.178-180.

7. Мамедова, Э.Э. Карабахская трагедия в прозе и публицистике Анара // – Казань: Сборник «Концепции современного образования: новации в системе научного знания». – 2020, – c.25-27.

8. Мамедова, Э.Э. Некоторые заметки о публицистике Анара (на онове статьи «Большое бремя – понимать») // Müasir dilçiliyin aktual problemləri Beynəlxalq elmi konfrans, – Sumqayıt: 24-25 noyabr, – 2016, – s. 260-261.

9. Мамедова, Э.Э. Публицистика Анара: летопись истории и морально- этические приоритеты // – Худжанд: Ученые записки.– 2018. №2,– с. 131-137.

10. Мамедова, Э.Э.Современность и современники в прозе и публицистике Анара // – Одесса: Науковий вiсник мiжнародногогуманiтарного унiверситету. Серiя: Фiлологiя. Збiрникнауковихпраць. – 2018. випуск 32, т. 1, – с. 148-151.

11. Мамедова, Э.Э. Трактат «Право на жизнь» Анара как один из жанровых модификаций его публицистики // Bakı: AMEA-nın Əlyazmalar İnstitutu, Filologiya məsələləri, – 2018. № 20, – с. 326-333.

12. Mammadova, E.E. Literary portrait genre in Anar`s art // Brasil: Journal Gender and Law`s Edition, – 2020. № 2, p.714-724

13. Mammadova, E.E. Unity of history and modernity in Anar`sgreation // SADAB 8th International Online Conference on Social Researches and Behavioral Sciences. / Tuzla, Bosnia and Herzegovina: – 22-24 April, – 2021, – p.223-228

Dissertasiyanın müdafiəsi __24__ __dekabr__ 2021-ci il tarixində saat __11^00^__ Sumqayıt Dövlət Universiteti nəzdində fəaliyyət göstərən FD 2.24 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ5008, Sumqayıt şəhəri, 43cü məhəllə, Sumqayıt Dövlət Universiteti

Dissertasiya ilə Sumqayıt Dövlət Universitetinin Elmi kitabxanasında tanış olmaq mümkündür.

Disstertasiya və avtoreferatın elektron versiyaları Sumqayıt Dövlət Universitetinin rəsmi saytında (www.sdu.edu.az) yerləşdirilmişdir.

Avtoreferat __19__ __noyabr__ 2021 il tarixdə zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 17.11.2021

Kağızın formatı: 60*84/$^{1/16}$

Həcm: 43084 işarə sayı

Tiraj: 100